ƏRRƏHMAN ƏHMƏDOV
*tarix elmləri namizədi*

# DAĞLIQ QARABAĞ PROBLEMİ AZƏRBAYCANIN TÜRKDİLLİ DÖVLƏTLƏRLƏ SİYASİ ƏLAQƏLƏRİ FONUNDA

XX yüzilliyin sonunda dünya düzülüşünün yeni bir keyfiyyətə yüksəldiyi bir zamanda dünyanın ən nəhəng dövləti olan Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) dağılması bütün dünya siyasətinə təsir etməklə yanaşı, həmin dövlətin tərkibində olan postsovet respublikalarında sosial gərginliyin, siyasi hərc-mərcliyin, millətlərarası münaqişələrin artmasına və kritik həddə çatmasına xüsusilə təkan vermiş oldu. Keçmiş SSRİ ərazisində alovlanmış bu gərginlik mərkəzləri (Moldovada, Gürcüstanda, Çeçenistanda, Özbəkistanda və s.) içərisində qondarma Dağlıq Qarabağ münaqişəsi özünün intensivliyi və uzunmüddətliyi ilə xüsusilə fərqlənir. Bu münaqişənin tarixinə fikir versək görərik ki, bu məkrli qüvvələrin havadarlığı ilə erməni müstəmləkəçiliyinin kökü ilə sıx bağlı olaraq oğuz türklərinə qarşı zaman-zaman həyata keçirilmiş təcavüz və soyqırım siyasətidir.

Dağlıq Qarabağ münaqişəsinin başlanğıc fazasında SSRİ rəhbərliyinin kəskin reaksiyasından ehtiyat edən Türkiyə gözləmə mövqeyinə üstünlük vermişdir. Lakin 1990-cı ilin əvvəllərində xarici işlər naziri M.Yılmaz Bakıda baş vermiş yanvar hadisələrini şərh edərkən qeyd etmişdir ki, Türkiyə bu hadisəyə diqqətlə yanaşacaq, bu hadisələrə loyal münasibət bəslənməyəcək [1, 21.01.1990].

Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycanın müstəqilliyini birinci olaraq tanıyan Türkiyə dövləti Dağlıq Qarabağ münasibətinin ilk dövründən də Azərbaycanın haqq işini müdafiə edən yeganə dövlət olmuşdur və bu problemin həlli istiqamətində öz dəstəyini əsirgəməyəcəyini bildirmişdir. Bundan sonra erməni tərəfi iddia edirdi ki, Ankara necə olur-olsun münaqişənin Azərbaycanın xeyrinə həll olunmasını istəyir. Lakin indiyə qədər gedən proseslərdən də məlum olmuşdur Türkiyə münaqişə başlayan vaxtdan beynəlxalq hüquq normalarından irəli gələn prinsiplər əsasında həllinin tərəfdarı olmuş, Dağlıq Qarabağ münaqişəsi başlayan gündən Ankara Cənubi Qafqazda gedən bütün hadisələri səbrlə izləmişdir. 1992-ci ilin əvvəllərində "32 gün" televiziya proqramında çıxış edən baş nazir S.Dəmirəl qed etmişdir ki, Ankara o halda münaqişəyə pozitiv münasibətini bildirəcək ki, hər iki tərəf Türkiyə dövlətinə etimad göstərib inanacaq. Lakin Türkiyənin müxtəlif siyasi dairələrində dövləti Azərbaycana hərbi yardım göstərməyə çağırışlar var idi. Ermənistana qarşı hərbi təpki göstərməyin əsas tərəfdarı Türkiyənin Sol Demokratlar Partiyasının lideri Bülent Ecevit oldu. O, Naxçıvanı baş verəcək erməni təcavüzündən qorumaq üçün Türkiyənin hərbi yardım göstərməsini təklif etdi. Bunun ardınca Xarici İşlər Naziri H.Çətin də bəyan etdi ki, Dağlıq Qarabağın statusunun Ermənistan tərəfindən zorla dəyişdirilməsinə Ankara heç bir vəchlə razı ola bilməz və Ermənistan buna görə cavab verməli olacaq [2, 14.05.1992].

Türkiyənin rəsmi dairələrinin bu kimi bəyanatlarla çıxışı Naxçıvan MR-si Ali Məclisinin sədri H.Əliyevin 1992-ci il martın 22-dən 25-dək qardaş ölkəyə olan rəsmi səfərindən sonra baş vermişdir. Belə ki, H.Əliyev həmin səfər zamanı prezident T.Özal, baş nazir S.Dəmirəl və başqa dövlət yetkililəri ilə görüşərkən Dağlıq Qarabağ münaqişəsi və onun ətrafında baş verən hadisələrlə bağlı danışıqlar aparmış və bu problemin həlli istiqamətində Türkiyənin fəaliyyətinin gücləndirilməsi üçün tədbirlərin formalarını müzakirə etmişdir [3, 10.02.1993].

Azərbaycanın Türkiyə dövlətinin simasında özünə etibarlı dayaq tapacağından qorxan ermənilər və onun havadarları hər vasitə ilə Azərbaycan-Türkiyə münasibətlərinə maneçilik törədirdilər. Elə bu siyasətin davamı olaraq erməni və rus birləşmiş separatçı-təcavüzkar qüvvələri Dağlıq Qarabağda hərbi əməliyyatları genişləndirdilər. Növbəti erməni hiyləgərliyi isə Dağlıq Qarabağda Azərbaycan Muxtariyyətinin ləğv edilməsi oldu [4, 1992, №27]. Bu baxımdan (noyabr 1991-ci il) Dağlıq Qarabağda hərbi durum da dəyişdi.

Buna baxmayaraq beynəlxalq miqyasda Azərbaycanın haqq işini ardıcıllıqla müdafiə edən Türkiyə dövlətinin Xarici İşlər Naziri H.Çətin 1993-cü il mart ayının əvvəllərində Moskvada rəsmi səfərdə olarkən, Dağlıq Qarabağ münaqişəsi ilə birbaşa əlaqəsi olan Rusiya rəhbərliyi ilə məhz həmin problemin həlli istiqamətində danışıqlar aparmışdır. Mart ayının 10-da Moskvadan qayıdarkən Bakıda olan H.Çətin Rusiyanın Xarici İşlər Naziri ilə görüşü zamanı bu problemin dinc yolla həll edilməsi mexanizminin hazırlanmasına dair mövqelərin müəyyənləşdirildiyini söyləmişdir [5, 10.02.1993]. lakin sonrakı dövrlərdə bu problemin törəməsinin səbəbkarlarından olan Rusiya, aparılmış danışıqlara və gəlinmiş nəticələrə belə məhəl qoymadan öz mövqeyini tez-tez dəyişmiş, problemin ədalətli şəkildə həll olunmasını istəməmişdir. Odur ki, nəinki Rusiyadan, eləcə də bütün xristian dünyasından hərtərəfli yardım görən erməni-daşnak hökuməti türk xalqına olan öz düşmən niyyətindən əl çəkmir, yeni-yeni iddialar irəli sürürdü. Məhz bu məsələlərə görə Türkiyə dövləti Ermənistanla olan sərhədlərini 1993-cü ilin aprel ayından etibarən başladı və bəyan etdi ki, nə qədər ki, əski türk torpağı olan Dağlıq Qarabağ erməni işğalından azad olunmayıb sərhədlər bağlı qalacaq [6, s. 98].

Türk dünyasının lokamativi sayılan Türkiyənin ardınca Mərkəzi Asiyanın türkdilli dövlətlərinin rəhbərləri də ilk zamanlar Ankaranın Dağlıq Qarabağ münaqişəsi üzrə tutduğu mövqeyə üstünlük verməyə başladılar. Ona görə ki, məhz bu ölkələrin iqtisadiyyatlarına Türkiyənin köməyi və investisiyası lazım idi. Hətta Özbəkistan rəhbərliyi 1992-ci ilin yazında Ermənistan prezidenti L.Ter-Petrosyanın Daşkəndə gözlənən səfərinin təxirə salınması üçün İravana diplomatik kanala məktub da göndərmişdir [7, 16.05.1992].

Dağlıq Qarabağ münaqişəsi haqqında Mərkəzi Asiyanın türkdilli dövlətlərinin ilk birgə bəyannatı 1992-ci ilinin may ayında həmin dövlətlərin rəhbərlərinin Aşqabatda düzənlənən görüşləri zamanı verilmişdir. Dövlət rəhbərləri bəyənatın sonunda erməni hərbi qruplaşmaları tərəfindən işğal edilmiş qədim türk torpağı olan Şuşa şəhərinin dərhal azad edilməsini tələb etmişdilər [8, 14.05.1992]. Bununla da dövlətlərin rəhbərləri rəsmi surətdə elan etdilər ki, münaqişə beynəlxalq hüququn prinsipləri nəzərə alınmaqla həll olunmalıdır. Hətta bir sıra siyasi dairələrdə Azərbaycanın haqq işini açıqca müdafiə etməklə, ərazilərini erməni təcavüzündən qurtarmaq üçün Azərbaycana hərtərəfli yardım göstərilməsini tələb etdilər. Belə ki, 1992-ci ilin avqust ayında Qazaxıstanın "Jeltoksan" partiyası xalqa müraciət edərək ermənilərə qarşı mübarizədə xalqını müdafiə etməyə çağırdı. Çağırışa çoxlu sayda insanlar səs vermişdir.

Özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində rəsmi hakimiyyətdən fərqli olaraq siyasi qurum və partiyalar Dağlıq Qarabağ məsələsində Azərbaycan xalqına kömək məqsədi ilə Xüsusi Komitə yaratdılar. Azərbaycanın zorla cəlb olunduğu bu münaqişənin çözülməsi uğrunda özbək xalqının narahatlığı Daşkənddə olan erməni mədəniyyət mərkəzinin təşvişə salmışdır. Lakin, liberallıq göstərərək qardaş xalqın haqq işinə loyal münasibət bəsləyən Özbəkistan prezidenti İ.Kərimov ermənilərlə münasibətlərin pisləşməməsi üçün yuxarıda adı çəkilən komitənin buraxılması haqqında sərəncam imzaladı. Hətta antierməni siyasətini "qızışdırdığına" görə Özbəkistanın mü-

xalifət partiyası olan "Erq"in siyasi orqanına qarşı cinayət işi də qaldırdı [9]. Güclü təqibə məruz qalan Özbəkistan müxalifəti başda Özbəkistan Birlik Xalq Hərəkatı başqanı Əbdürrəhim Polad olmaqla Azərbaycana qaçmışdılar. Azərbaycan hakimiyyətinə Xalq Cəbhəsi partiyası İ.Kərimovun siyasi mühacirlərin geri qaytarılması tələbini yerinə yetirmədi. Əksinə onların Türkiyəyə keçməsinə şərait yaratdı. Bu hadisədən sonra Özbəkistan – Azərbaycan münasibətləri daha da pisləşdi. Bu hal 90-cı illərin ortalarına kimi yəni, H.Əliyevin Azərbaycanın siyasi rəhbərliyinə gəlməsi ilə daxili və xarici siyasətdə köklü dəyişiklik olanadək davam etmişdir.

1994-cü ildə Dağlıq Qarabağ münaqişəsi ətrafında həyata keçirilmiş mücərrəd tədbirlərdən biri də münaqişə zonasına sülhməramlı hərbi dəstələrin yerləşdirilməsi məsələsi olmuşdur. Bu məsələ ATƏT çərçivəsində həll olunmalı idi. İdeyanı ortaya atan erməniпərəst qüvvələr əsasən də Rusiya Dağlıq Qarabağ və onun ətraf ərazilərinin tam erməniləşdirilməsinə nail olmaq üçün "sülhməramlı" adı altında oraya, artıq bizim tanıdığımız təcavüzkar rus hərbi dəstələrini yerləşdirmək fikrində idi. 6 dekabr 1994-cü il tarixində ATƏT-də müzakirə mövzusuna çevrilən bu məsələ əleyhinə Türkiyə qəti olaraq çıxış edib, sülhməramlı dəstənin tərkibinin yalnız bir dövlətin hərbi hissələrindən təşkil olunmasının yolverilməz olduğunu bildirmişdir. Və Türkiyənin hərbi dəstələrinin də bu kontingentin tərkibinə daxil edilməsini təkid etmişdir. Hətta Baş nazir T.Çillər ABŞ prezidenti B.Klinton ilə görüşündə və Türkiyə televiziyalarının müxbirlərinə verdiyi münasibətlərdə də Ankaranın mövqeyini izah etməklə Dağlıq Qarabağda "Sülhməramlı" ordu adı altında təkcə Rusiyanın hərbi hissələrinin yerləşdirilməsinin yolverilməz olduğunu bildirmişdir. Və qeyd etmişdir ki, Türkiyə dövləti sülh yaradacaq qüvvələrin tərkibinə ATƏT-in üzv ölkələrin hərbi qüvvələrinin də daxil olmasına çalışır. Hətta "Milliyet" qəzeti Dağlıq Qarabağa yalnız rus qoşunlarının göndərilməsini Türkiyə üçün böyük təhlükə saymışdır [10, 7.12.1994].

Dağlıq Qarabağ problemi türkdilli dövlətlərin liderlərinin intensiv olaraq müzakirə obyektinə çevrilmişdir. Lakin, başlanğıcda yəni, 1992-ci ilin oktyabr ayında Ankarada çağrılmış birinci türk sammitində Türkiyə və Azərbaycan nümayəndələrinin təhriki ilə son deklarasiyada problem öz əksini tapmışdır. Bu da Mərkəzi Asiyanın türkdilli dövlətlərinin bəzi rəhbərlərinin etirazı əsasında olmuşdur. Belə ki, mətbuat konfransında Qazaxıstan prezidenti N.Nazarbayev bəyan etmişdir ki, münaqişədə türkdilli dövlətlər gərək heç bir tərəfi müdafiə etməsin, əks halda regiondakı situasiya daha da pisləşə bilər. Hətta o, Ermənistana qoyulacaq iqtisadi embarqonun da əleyhinə çıxış etmişdir.

MDB üzv olan ölkələrin kollektiv təhlükəsizlik haqqında müqaviləsinə imza atmış Mərkəzi Asiyanın türkdilli dövlətləri bu münaqişədə Azərbaycanı deyil, əgər müharibə olarsa Ermənistanı müdafiə edəcəklərini bildirmişdilər. Hətta, Özbəkistan prezidenti İ.Kərimov "Türkiye" qəzetinə müsahibəsində Türkiyəni münaqişəyə girməməyə çağıraraq demişdir: "Bu problem BMT çərçivəsində həll edilməlidir. Üçüncü tərəfin qarışmağı böyük fəlakətə gətirə bilər. Biz bir müsəlman və türk kimi birlikdəyik, lakin hal-hazırda gərək kənarda duraq". Hətta Qırğızıstan Respublikası Dövlət Müdafiə Komitəsinin əməkdaşı Çalıbek Umeldiyev çıxış edərkən demişdir ki, Ermənistanın ərazi bütövlüyü hər-hansı bir dövlət tərəfindən pozularsa kollektiv təhlükəsizlik haqqında müqavilədən irəli gələn öhtəliklər minməli və MDB-nin silahlı qüvvələri Ermənistanı müdafiə etməlidir [11, s. 148].

1994-cü ilin payızında İstanbulda keçirilmiş ikinci türk sammitində də yenə də Türkiyə və Azərbaycanın cəhdlərinə baxmayaraq Dağlıq Qarabağ münaqişəsində Bakının mövqeyi digər toplantı iştirakçıları tərəfindən müdafiə olunmadı. Hətta Qazaxıs-

tan prezidenti N.Nazarbayev Ermənistanı aqressor kimi qəbul edilməsinin əleyhinə çıxdı. Bundan əlavə Aşqabad hökumətini də Türkmənistan qazının əsas alıcılarından olan Ermənistanla münasibətlərdə kəskin siyasət qane etmirdi. Mərkəzi Asiyanın türkdilli dövlətlərinin liderlərinin Azərbaycanın haqq işinə belə loyal münasibət bəslədiklərini gərək H.Əliyev yekun nitqində sammitin nəticələrinə öz etirazını bildirərək qeyd etmişdir ki, Mərkəzi Asiyanın türkdilli dövlətləri ilə Azərbaycanın münasibətləri hələ də lazımi səviyyədə deyildir [12, 19.01.1995].

Dağlıq Qarabağ problemi türkdilli dövlətlərin liderlərinin sonrakı (Bişkek, Daşkənd, Astana və Bakı) zirvə görüşlərinin son sənədlərində də yada salınmasına və bu münaqişə haqqında müxtəlif bəyanatlar verilməsinə baxmayaraq nəticədə Azərbaycanın haqq işinin beynəlxalq hüquq müstəvisində tam təmin olunmasını istəyən qərar çıxarmaq mümkün olmamışdır. Ona görə ki, Azərbaycanı ardıcıl olaraq müdafiə edən yeganə türkdilli dövlət Türki idi. Mərkəzi Asiyanın türkdilli dövlətləri isə öz maraqları kontekstində çıxış edərək heç bir dövlət qarşısında pis olmaq istəmirdilər. Bu da həmin dövlətlərdə milli etnosiyasi ideyanın arxa plana keçirilməsi demək idi.

Sonrakı illərdə də türkdilli dövlətlərin Dağlıq Qarabağ probleminə dair fikirlərinə və tutduqları mövqelərində demək olar ki, ciddi dəyişiklik olmamışdır. Məlum olduğu kimi yalnız Türkiyə münaqişənin əvvəlindən tutduğu mövqe üzərində dayanmış, Azərbaycan xalqının haqq işini birmənalı olaraq müdafiə etmiş, öz mövqeyini dəyişməmiş və beynəlxalq ictimaiyyət qarşısında birmənalı çıxış etməkdədir. Dünya birliyinin təzyiqlərinə baxmayaraq öz mövqeyindən geri çəkilməmişdir.

Tədqiq olunan dövrə aid analizi aparılmış tədqiqat materialları göstərir ki, Azərbaycanla ikitərəfli və çoxtərəfli əməkdaşlıq sayəsində yaxın münasibətlər qurmalarına baxmayaraq Mərkəzi Asiyanın türkdilli dövlətləri Dağlıq Qarabağ məsələsində Azərbaycanın haqq işinə loyal münasibət bəsləmiş, hətta bəzi hallarda Ermənistanın tərəfini saxlamışlar.

### *ƏDƏBIYYAT*

1.“Milliyyet” qəzetesi, 21 yanvar, 1990-cı il.
2.“Milliyyet” qəzetesi, 14 may, 1992-ci il.
3.“Azərbaycan” qəzeti, 1993-cü il, 10 fevral.
4.“New Times İnternational” qəzeti, 1992-ci il № 27, p 7.
5.“Azərbaycan” qəzeti, 1993-cü il, 10 fevral.
6.Бюлент Арас «Турция: некоторые особенности отношений с государствами Закавказии // Центральная Азия и Кавказ. Швейцария», 2001, № 5, с. 92-108.
7.Газета «Независимая газета» 1992, 16 мая.
8.Газета «Независимая газета» 1992, 14 мая.
9.Press-Service U.Z. Пресс – служба президента Республики Узбекистана.
10.“Azərbaycan” qəzeti, 1994-cü il, 7 dekabr.
11.Talbot S. US Policy for the Caucasus Azerbaijan İnternational Spring 31, march, 1998. p. 148-149.
12.“Turkish Daily News” qəzeti, 1995, 19 yanvar.

**АРРАХМАН АХМЕДОВ**

### НАГОРНО-КАРАБАХСКАЯ ПРОБЛЕМА АЗЕРБАЙДЖАНА НА ФОНЕ ПОЛИТИЧЕСКИХ СВЯЗЕЙ ТЮРКОЯЗЫЧНЫХ ГОСУДАРСТВ

В статье рассказывается позиция тюркоязычных политических связей с Азербайджаном в разрешении проблемы Нагорного Карабаха, которая в искусственном порядке была навязана Азербайджану, после завоевания независимости.

**Tarix və onun problemləri, №1-2 2009**

**ARRAKHMAN AKHMEDOV**

## MONNTAIENOUS-KARABAKH PROBLEM OF AZERBAIJAN ON BACKGROUND OF POLITICAL RELATIONS OF TURK LANGNASE

Yn the article i tis Said about position of Turk Cangnase states on Background of political relations with Azerbaijan in decision of problem sof Monntaienous Karabakh whish was fastened to Azerbaijana in artifical order after conqnering of independency.

***Rəyçilər: t.e.n.Ş.Nuruzadə, t.e.d.L.L.Həsənova.***
***ADPU-nun Tarix fakültəsinin Elmi Şurasının 15 fevral 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №05).***